# "Tour d'Azerbaidjan-2015" beynəlxalq veloyürüşünün üçüncü mərhələsinə Qəbələ şəhərində start verilmişdir






Mayın 8-də Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsi və Beynəlxalq Velosipedçilər İttifaqının dəstəyi ilə Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən təşkil olunan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş 5 mərhələdən ibarət "Tour d'Azerbaidjan-2015" beynəlxalq velosiped turunun III mərhələsinə start verilmişdir.

Qəbələ Rayon İcra Hakimiyyətinin qarşısından start götürən və 24 ölkəni təmsil edən 25 komanda "Qəbələ—Oğuz-Şəki—Oğuz—Qəbələ" marşurutu üzrə 177,2 kilometr məsafəni qət etmişdir.Finiş xəttinə Böyük Britaniya velosipedçisi Coşua Tomas Edmondson birinci çataraq qalib adını qazanmışdır.O məsafəni 4 saat 7 dəqiqə 28 saniyyəyə qət etmişdir. İkinci yeri Sloveniya klubundan olan Marko Kump, üçüncü yeri isə Azərbaycanın "Synerqy Baku" komandasının üzvü Matey Muqerli tutmuşdur. "Synerqy Baku"nun daha bir üzvü Aleksandr Surutkoviç dağ kralı olduğu üçün qırmızı, Primoş Roqliç ötən mərhələnin lideri olduğu üçün göy, ən gənc qalib Frantişek Sisr isə bənövşəyi köynəyə sahib olmuşdur.

Daha sonra "Tour d`Azerbaidjan-2015" beynəlxalq veloturunun üçüncü mərhələsinin yekunlarına görə, qaliblərin mükafatlandırılması mərasimi keçirilmişdir. İdmançılara mükafatları veloyürüşün təşkilat komitəsinin başçısı, Azərbaycan Velosiped İdmanı Federasiyasının vitse-prezidenti Sahib Ələkbərov və Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı cənab Səbuhi Abdullayev təqdim etmişdir.

* * *

Mayın 9-da Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin, Milli Olimpiya Komitəsi və Beynəlxalq Velosipedçilər İttifaqının dəstəyi ilə Azərbaycan Velosiped İdmanı Federasiyası tərəfindən təşkil olunan Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş 5 mərhələdən ibarət "Tour d'Azerbaidjan-2015" beynəlxalq velosiped turunun dördüncü mərhələsinə başlanılmışdır. Qəbələ Rayon İcra Hakimiyyətinin qarşısından start götürən və 24 ölkəni təmsil edən 25 komandada yarışan velosipedçilər Qəbələ—Ağdaş—Yevlax—Mingəçevir marşrutu üzrə hərəkətə başlamışlar.

* * *

Beynəlxalq Velosipedçilər İttifaqının (UCİ) 2.1 kateqoriyalı "Tour d'Azerbaidjan-2015" veloyürüşü Azərbaycanın "Synergy Baku Cycling Project" komandası üçün möhtəşəm nailiyyətlə başa çatdı. Belə ki, təmsilçimiz sonuncu mərhələdəki uğurlu çıxışı ilə 25 kollektiv arasında komanda hesabında 1-ci yerə çıxdı.

Bundan əlavə veloyürüşün ayrı-ayrı mərhələləri üzrə Azərbaycan komandasının bir sıra üzvləri yarışın qalibləri olmuşlar.

**Fotolar S. Umuyevindir.**

# Heydər Əliyevin ahıl və ağbirçək insanlara qayğısı böyük humanizm nümunəsi idi

1993-cü ilin yayında xalqımızın istək və arzusu ilə Azərbaycana siyasi hakimiyyətə qayıdışından sonra ulu öndərimiz Heydər Əliyev yalnız müstəqilliyimizin ən ağır təhlükələrdən xilas edilməsi istiqamətində deyil, çörək ümidinin belə yoxa çıxmasına səbəb olmuş çətinliklərin aradan qaldırılması, xalqın güzəranının yaxşılaşdırılması istiqamətində də çevik dövlət siyasəti hazırlayaraq həyata keçirmişdir. Heydər Əliyev nadir dövlət başçılarından biri idi ki, ölkədə müstəqil dövlət quruculuğu prosesləri ilə paralel olaraq, dövlətin sosial siyasətinin formalaşdırılması və onun ilbəil gücləndirilməsi missiyasını yerinə yetirmişdir.

Ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 10 il ərzində əhalinin bütün təbəqələrinin, xüsusilə də aztəminatlı vətəndaşların sosial müdafiəsi ilə bağlı qanunvericilik bazasının yaradılması, bu kateqoriyadan olan insanlara dövlət qayğısının mütəmadi artırılması, əhalinin məşğulluğunun təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir.

«Bizim dövlətimizin siyasəti iqtisadiyyatı inkişaf etdirməklə yanaşı, birinci növbədə sosial problemləri həll etməkdən ibarətdir»-deyə, bəyan edən ulu öndərimizin əsasını qoyduğu sosial siyasətin bəşəri humanizmə və milli dəyərlərə söykənən məqsədlərindən biri də həyatda tənhalığa məruz qalmış ahıl və əlil insanlara tənhalıq, kimsəsizlik dərdini unutdurmaq olmuşdur. Bununla bağlı olaraq ulu öndər tərəfindən müntəzəm olaraq fərman və sərəncamlar imzalanmış, ölkədə ahıllarla bağlı dövlətin qanunvericilik bazası formalaşdırılmışdır.

Belə ki, «Ahıllara sosial xidmət haqqında» Azərbaycan Respublikası Qanununa uyğun olaraq, hazırda ölkədə xeyli sayda tək ahıl vətəndaşa və əlilə rayon əhalinin sosial müdafiəsi mərkəzlərinin sosia xidmət işçiləri tərəfindən evlərində xidmət göstərilir. Qeyd etmək lazımdır ki, tək yaşayan həmin rayonda və ya şəhərdə qanunla onları saxlamağa borclu övladları və ya valideynləri olmayan 70 yaşına çatmış tək ahıl vətəndaşlar, I qrup əlillər, başqasının köməyinə ehtiyacı olan II qrup əlillər Həkim Məsləhət Komissiyasının və ya Tibbi Sosial Ekspert Komissiyasının rəyinə əsasən xidmətə götürülürlər.

Bayramlarda və digər əlamətdar günlərdə tənha ahıl və əlil vətəndaşlar üçün bayram süfrələri açılır, onlara ərzaq və pul yardımları göstərilir. Ahıl və əlil vətəndaşlar yaşadıqları rayon ərazisində həkim nəzarətinə götürülür, pulsuz dərmanla təmin olunurlar. Ümumiyyətlə, ölkəmizdə ahıl və ağbirçək insanlara pensiya təminatı, istərsə də digər sahələrdə dövlət qayğıları ilbəil artır. Eyni zamanda ayrı-ayrı internat və pansionatlarda dövlət himayəsində yaşayan ahıl və ağbirçək vətəndaşlara bütün istiqamətlərdə qayğılar göstərilir və onlar bu qayğılar əhatəsində tənha olduqlarını unudurlar.

Ulu öndərimiz 1998-ci ilin 8 aprelində Qurban bayramı münasibətilə Bilgəhdəki Müharibə və Əmək Əlilləri Pansionatında tənha ahıl və ağbirçək insanlarla görüşündə demişdir: «Əmin ola bilərsiniz ki, sizin həyatınız, yaşayışınız daim bizim, prezidentin qayğısı altındadır və bundan sonra da belə olacaqdır». Aradan ötən illər ərzində, doğrudan da ulu öndərimizin bu sözləri həyatda öz real təsdiqini tapmışdır. Fərəhli haldır ki, bu gün də möhtərəm Prezidentimiz İlham Əliyev tərəfindən ahıllara, ağbirçək insanlara göstərilən diqqət və qayğı mütəmadi artır.

Bu səbəbdəndir ki, ölkənin ahıl insanları böyük öndərimizin Azərbaycanımız naminə xidmətlərini və həmçinin sosial sahəyə, tək-tənha və əlil insanlara göstərdiyi böyük qayğıları minnətdarlıq hissi ilə yad edirlər.

**Arzu HACIYEV,**
**rayon əhalinin sosial müdafiəsi mərkəzinin direktoru.**

# Heydər Əliyev ideyaları yaşayır və yaşayacaqdır

***XX əsrin ən böyük şəxsiyyətlərindən biri, Azərbaycan xalqının böyük oğlu Heydər Əliyevin doğum gününün 92-ci ildönümü ölkənin bütün rayonlarında, şəhər, qəsəbə və kəndlərində, ayrı-ayrı təşkilatlarda, idarə və müəssisələrdə olduğu kimi Qəbələdə də yüksək səviyyədə qeyd olundu. Aşağıda bir sıra təşkilatlarda, idarə və müəssisələrdə ümummilli liderin doğum gününə həsr olunmuş tədbirlərdən xəbərləri dərc edirik.***

## YAP Qəbələ Rayon Təşkilatında

YAP Qəbələ Rayon Təşkilatının gənclər birliyi ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümü ilə bağlı geniş tədbir keçirdi.Tədbir iştirakçıları əvvəlcə Heydər Əliyev Mərkəzinin foyesindəki dahi şəxsiyyətin büstü önünə gül dəstələri qoydular və əziz xatirəsini bir dəqiqəlik sükutla yad etdilər.

Tədbiri giriş sözü ilə açan YAP Qəbələ Rayon Təşkilatının aparat rəhbəri Elçin Tağıyev ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən danışdı.

Tədbirdə məruzə ilə çıxış edən YAP rayon təşkilatının Gənclər Birliyinin sədri Namiq Ağayev Heydər Əliyevin Azərbaycan gəncliyinə göstərdiyi diqqət və qayğıdan söhbət açdı. O, ulu öndərin əsasını qoyduğu gənclər siyasətinin ölkə Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən, gənclərə yüksək diqqət və qayğının göstərilməsindən və elverişli təhsil mühitinin yaradılmasından bəhs etdi. Məruzəçi çıxışının sonunda bildirdi ki, hər bir Azərbaycan gənci Heydər Əliyevin ideyalarından ruhlanaraq göstərilən qayğı və etimadı doğrultmalı, ölkənin inkişafı naminə daha çox çalışmalı və qazandıqları bilik-bacarıqları vətənin daha da inkişafına sərf etməlidir.

Tədbirdə Yeni Azərbaycan Partiyasının gənc üzvləri Sahil İsrəfilzadə, Ceyhun Əhmədov və Qəbələ Otelçilik üzrə Peşə Tədris Mərkəzinin müəllimi Reyhan Çələbiyeva çıxış edərək bildirdilər ki, zəmanəmizin görkəmli siyasətçilərindən olan dahi rəhbər Heydər Əliyevin əbədiyaşar xatirəsi əsrlər boyu yaddaşlarda qalacaq, Azərbaycan var olduqca ulu öndərin xatirəsi də yad ediləcəkdir.

Tədbir gənc YAP üzvləri Zümrüd Yaqubova, Xəyal Gəncimov, Şəbnəm Kamallı və Elşən Salehovun səhnələşdirdikləri ədəbi-bədii kompozisiya ilə davam etdi.

Tədbirin sonunda ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filim nümayiş olundu.